# Xankəndidə diaspor gənclərinin iştirakı ilə kibertəhlükəsizlik mövzusunda panel keçirilib



**Xankəndidə keçirilən Diaspor Gənclərinin VI Yay Düşərgəsində "Qlobal miqyaslı virtual icma və şəbəkələşmə platforması" mövzusunda panel təşkil olunub.**

Diasporla İş üzrə Dövlət Komitəsindən AZƏRTAC-a bildirilib ki, Azərbaycan Kibertəhlükəsizlik Təşkilatları Assosiasiyasının (AKTA) icraçı direktoru Rauf Cabarovun moderatorluğu ilə keçirilən panelin qonaqları assosiasiyanın şöbə müdiri Əli Məmmədzadə, AKTA-nın İdarə Heyətinin sədri Pənah Musayev, "Crowdstrike" regional sistem mühəndisi Orxan Həbibzadə və "AREA Academy"nin təsisçisi Rəhman Rəsulzadə olub.

Paneldə kibertəhlükəsizlik sahəsində motivasiyanın əhəmiyyəti və gənclərin bu sahədə inkişafına dəstək imkanlarından danışılıb, virtual icma platformaları yaratmağın yeni meyarları barədə intellektual müzakirələr aparılıb. Müasir dövrün tələblərinə uyğun kibersimulyasiya texnologiyalarının rolu qeyd edilib. Dron və robot texnologiyaları sahəsindəki yeniliklər, bu texnologiyaların gələcəyin əsas istiqamətlərindən biri olduğu diqqətə çatdırılıb. Belə təşəbbüslərin diaspor gənclərinin texnologiya, kibertəhlükəsizlik və innovasiya sahələrində maariflənməsi, qlobal şəbəkələrə inteqrasiyası, eləcə də milli maraqlar ətrafında birləşməsi üçün mühüm platforma rolunu oynadığı vurğulanıb. Müzakirələr zamanı həmçinin düşərgə iştirakçılarının süni intellekt, kibertəhlükəsizlik, eləcə də rəqəmsal texnologiyalarla bağlı sualları cavablandırılıb.

Qeyd edək ki, avqustun 9-dək davam edəcək Diaspor Gənclərinin VI Yay Düşərgəsi Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsi və Heydər Əliyev Fondunun birgə təşkilatçılığı ilə Xankəndidə keçirilir. Düşərgədə dünyanın 61 ölkəsindən 128 gənc iştirak edir. Bundan əvvəlki düşərgələr Şəki, Şamaxı, Şuşa, Naxçıvan və Laçın şəhərlərində baş tutub, düşərgələrə hər il 60-dan çox ölkədən ümumilikdə 700-dən çox gənc qatılır.

Azərbaycan.- 2025.-9 avqust (№165).- S.7.